Schweizerische Eidgenossenschaft
Confédération suisse
Confederazione Svizzera
Confederaziun svizra

Swiss Confederation

EDF
SBIIYF

Sahibkarlığın və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu (SBİİYF)
İsveçrə İnkişaf və Əməkdaşlıq Agentliyi

**"Azərbaycanda inkişafı təşviq etmək üçün müzakirə platforması" layihəsi**

"Azərbaycan 2020: Gələcəyə baxiş" İnkişaf Konsepsiyasının

"**Mədəni irsin qorunması və səmərəli idarə edilməsi**" istiqaməti üzrə

# MONİTORİNQ HESABATI

Mehriban Vəzir

*Mədəni tərəqqi ilə bağlı hədəflər*

Azərbaycan Respublikasında mədəni irsin qorunması və səmərəli idarə edilməsinin təmini `***Azərbaycan 2020; Gələcəyə Baxış` İnkişaf Konsepsiyası*** sənədində əsas hədəflərdən biri kimi göstərilir.

Sənəddə bu hədəflərə çatmaq üçün bir neçə mühüm istiqamət müəyyən edilib.

1) Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası və qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətlərinin təkmilləşdirilməsi və inkişaf etdirilməsi; Vahid elektron məlumat bazasının yaradılması; Reyestrin yenilənməsi; Kadr potensialının gücləndirilməsi; Qabaqcıl idarəetmə modellərinin tətbiq;, Daşınmaz mədəni irsin qorunması üzrə hüquqi aktların təkmilləşdirilməsi; Daşınmaz mədəni irsin ölkə daxilində və xaricində təbliğ edilməsi; Bu istiqamət üzrə UNESCO, İSESCO, TÜRKSOY və digər beynəlxalq təşkilatlarda zəruri işlərin görülməsi.

2013-cü ildə prezident sərəncamı ilə təsdiq edilmiş `**Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illlər üzrə Dövlət Proqramı**`nın analizi göstərir ki, hökumətin mədəni irslə bağlı prioritetləri aşağıdakılardır:

1. **Normativ-hüquqi bazanın təkmilləşdirilməsi;**
   - 1.1. Dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidlərinin yeni siyahılarının tərtibi və təsdiqi;
   - 1.2. Daşınmaz tarix və mədəniyyət abidələrinin, tarix-mədəniyyət qoruqlarının qorunması və onlardan istifadə sahəsində hüquqi aktların təkmilləşdirilməsi;
   - 1.3. Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpa-konservasiya işlərinə dair normativ sənədlərin beynəlxalq standartlara uyğunlaşdırılması.
2. **Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası və qorunması işinin təkmilləşdirilməsi;**
   - 2.1. Tarix və mədəniyyət abidələrinin idarəedilməsi sisteminin təkmilləşdirilməsi;
   - 2.2. Tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi, maddi-texniki bazanın inkişafı, mühafizənin təmin edilməsi;
   - 2.3. Daşınmaz mədəni irsin, arxeoloji abidələrin inventarlaşdırılması, pasportlaşdırılması, xəritələrin hazırlanması, müasir tələblərə cavab verən məlumat bazasının yaradılması, multimedia və elektron müşahidə sisteminin yaradılması;
   - 2.4. Daşınmaz tarix və mədəniyyət abidələrinin qorunması sahəsində YUNESKO və digər beynəlxalq qurumlarla əməkdaşlığın inkişaf etdirilməsi.

3. **Monitorinq, bərpa-konservasiya, tədqiqat və təbliğat işləri.**
    3.1. Daşınmaz tarixi və mədəniyyət abidələrinin texniki vəziyyətinin öyrənilməsi;
    3.2. Tarix və mədəniyyət qoruqlarında elmi tədqiqatların səmərəliliyinin artırılması;
    3.3. Azərbaycanın işğal altında olan torpaqlarında yerləşən daşınmaz mədəni irs haqqında kitabların çap edilməsi;
    3.4. Daşınmaz tarix və mədəniyyət abidələrinin öyrənilməsi, təbliği, mədəniyyət qoruqlarının veb-saytlarının hazırlanması.

Mədəni irsin qorunması hökumət üçün prioritet istiqamətlərdən biridir. Bu yöndə görülən işlər; hüquqi normativ sənədlərin təkmilləşdirilməsi, yeni strukturların yaradılması, sahə üzrə təhsilin və ixtisaslaşmanın tətbiqi, məlumatlandırma, beynəlxalq əlaqələr və digər istiqamətlər üzrə fəaaliyyətlərdə özünü göstərir.

2013-2016-cı illərdə mədəni irsin özünəməxsusluğunun qorunub saxlanmasında, tarix-mədəniyyət abidələrinin öyrənilməsi və mühafizə edilməsinin təkmilləşdirilməsi sahəsi üzrə bir sıra hüquqi aktlar həyata keçirilmiş, qanunvericiliyə əlavə və dəyişikliklər edilmiş, dövlət proqramları qəbul edilmiş, yeni strukturlar yaradılmışdır.

15 fevral 2013-cü ildə `Mədəniyyət Haqqında` qanunun tətbiqi barədə prezident fərmanı olmuş, `Tarix və Mədəniyyət Abidələrinin Qorunması` haqqında qanuna 7 mart, 3 may, 29 oktyabr 2013-cü il tarixlərində əlavə və dəyişikliklər edilmiş, uyğunlaşdırılmış, qanunun tətbiqi haqqında 25 noyabr 2013-cü ildə sərəncam imzalanmışdır. ``Mədəniyyət haqqında` və `Tarix və Mədəniyyət Abidələrinin Qorunması` haqqında qanunun təkmilləşdirilməsi 2015-2016-cı illərdə də davam etmişdir. Nazirlər Kabineti bu qanunlardan doğan çoxsaylı qərarlar qəbul etmişdir.

14 fevral 2014-cü ildə`Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası` təsdiq edilmişdir.

18 dekabr 2014-cü ildə Mədəniyyət və Turizm Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti yaradılması haqqında prezident fərmanı olmuşdur.

19 yanvar 2016-cı ildə `Şəki Şəhərinin Yuxarı Hissəsinin Qorunması Haqqında` prezident sərəncamı olmuşdur.

30 avqust 2016-cı ildə Cənubi Qafqazda alman məskənlərinin salınmasının 200 illiyi ilə bağlı prezident sərəncamı olmuşdur.

27 dekabr 2013-cü ildə Mədəniyyət və Turizm Nazirliyi tərəfindən təqdim edilən `Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət abidələrinin fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci ilər üzrə Dövlət Proqramı` prezident tərəfindən təsdiq edilmişdir.

Dövlət Proqramının həyata keçirilməsi üzrə 2013-2016-cı illər ərzində görülən işlər aşağıdakılardır;

a) ***Normativ hüquqi bazanın təkmilləşdirilməsi;***

- 21.12 2012-ci il tarixdə qəbul olunmuş `Mədəniyyət haqqında` Qanunun tətbiqi barədə 15.02.2013-cü ildə prezident sərəncamı olmuşdur.
- 2013-cü ildə Muğan-Babazanlı abidələrinin 2800 illik yubileyinin qeyd edilməsi haqqında prezident sərəncamı olmuşdur.
- 2013-cü ildə `İçərişəhər` Dövlət Tarix-Memarlıq Qoruğu ərazisində muzey eksponatlarının yenidən qurulması ilə bağlı əlavə tədbirlər haqqında prezident sərəncamı olmuşdur.
- 2013-cü ildə Nazirlər Kabineti `Qala` Dövlət Tarix-Etnoqrafiya Qoruğunun xüsusi rejimi haqqında Əsasnamə`ni təsdiq etmişdir.
- 2014-cü ildə `Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası`nın təsdiq edilməsi haqqında prezident sərəncamı olmuşdur.
- 18.12.2014-cü il tarixdə Mədəniyyət və Turizm Nazirliyi yanında `Mədəni irsin qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti`nin yaradılması haqqında prezident fərmanı olmuşdur.
- 2015-ci ildə Nazirlər Kabineti tərəfindən `Azərbaycan Respublikasında mədəni irs nümunələrinin qorunması, bərpası və istifadəsi  Qaydası` təsdiq edilmişdir.
- Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin yeni siyahısı tərtib və təsdiq edilmişdir. Daşınmaz tarix və mədəniyyət abidələrinin balans mənsubiyyəti dəqiqləşdirilmiş, Nazirlər Kabinetinin 17 iyun 2014-cü il, 196 nömrəli Qərarı ilə  təsdiq edilmişdir.
- 2015-ci ildə `Mədəniyyət sahəsində elektron məlumat sisteminin tərkibi, təşkili və idarə edilməsi Qaydası` haqqında Nazirlər Kabinetinin Qərarı olmuşdur.
- 15 iyul 2015-ci ildə Nazirlər Kabinetinin `Mədəni İrs nümunələrinin qorunması, bərpası və istifadəsi Qaydası`  haqqında Qərarı olmuşdur.
- 2016-cı ildə Nazirlər Kabinetinin `Milli mədəni irs obyektlərinin sahiblərinə həmin obyektlərin mühafizəsini təmin etmək məqsədi ilə verilən Təminatlar`ın təsdiq edilməsi barədə Qərarı olmuşdur.
- 2016-cı ildə Şəki şəhərinin tarixi hissəsinin qorunması haqqında prezident sərəncamı olmuşdur.

b) ***Struktur işinin təkmilləşdirilməsi;***

- 2014-cü ildə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi yanında **Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti** yaradılmışdır.

- 2014-cü ildə prezident sərəncamı ilə Turizm İnstitutunun bazasında ali təhsilin bütün pillələrində turuzm və menecment sahələri üzrə kadr hazırlığını həyata keçirən Azərbaycan Turizm və Menecment Universiteti (ATMU) yaradılıb.
- 2014-cü ildə `GoMap.az – Turizm məqsədli Coğrafi İnformasiya və Naviqasiya Sistemi` Cənubi Qafqaz və Mərkəzi Asiya regionunda bulud texnologoyaları əsasənda ilk elektron xəritə yaradılmışdır. Sistem Nazirlər Kabinetinin qərarına əsasən `Elektron xidmət növlərinin siyahısı`na salınmışdır.
- 2014-cü ildən etibarən Azərbaycan, rus, ingilis dillərində `Baku Guide` bələdçi kataloqu nəşr olunur.
- 2015-2016-cı illərdə `Baku-Guide` nin nəşri davam etmişdir.

c) ***Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası və qorunması işinin təkmilləşdirilməsi;***

- **Atəşgah Məbədi`** Dövlət Tarixi Memarlıq Qoruğu ərazisində aparılan geniş miqyaslı bərpa-konservasiya, elmi-tədqiqat, yenidən qurma və abadlaşdırılma işləri başa çatdırılmışdır.
- **`Böyük Mərdəkan Qəsri`** abidəsində abadlıq işləri aparılmışdır.
- **Xınalıq** Dövlət Tarix-Memarlıq və Etnoqrafiya Qoruğunun **Əbu-Müslüm** və **Xıdır Nəbi** məscidlərində bərpa və konservasiya işləri tamamlanmışdır.
- `**Avey**` qoruğunda təmir işləri görülmüşdür.
- **`Şəki xanlarının evi`**nin bərpası başa çatmışdır.
- **Şəki Xan Sarayının** qala divarının təmiri başa çatmışdır.
- Xəzər rayonu **Şağan** qəsəbəsindəki XIV əsrə aid abidənin qalıqları konservasiya olunmuşdur;
- Qəbələ Dövlət Tarix-Bədii Qoruğunun **Səlbir** ərazisindəki arxeoloji sahələr konservasiya olunmuşdur;
- `**Yuxarı Baş**` Dövlət Tarix-Memarlıq Qoruğunun `**Avey**` və `**Şabran Şəhəri**` qoruqlarının xəritəsi hazırlanmışdır;
- `**Yanardağ**`, `**Keşikçidağ**` Dövlət Tarix-Mədəniyyət, `**Xınalıq**`Dövlət Tarix-Memarlıq və Etnoqrafiya, `**Atəşgah Məbədi**` Dövlət Tarix-Memarlıq qoruqları elan edilmişdir;
- Bərdə şəhərində `**Nüşabə Qalası**` və ya `**Allah-Allah**` türbəsinin konservasiyası 2013-cü ildə elmi tədqiqat işlərinə görə dayandırılmış və hələ də başa çatmamışdır.
- Gəncə şəhərində `Şah Abbas` və `Uğurlu xan` karvansarasına bərpa işləri başa çatmamışdır.
- XII əsrə aid `Sınıq körpü` abidəsinin bərpası başa çatmayıb.

- Şəki şəhər `Yuxarı Baş` Dövlət Tarix-Memarlıq Qoruğunun YUNESKO-nun Dünya İrsi Siyahısına salınması üçün fəaliyyət proqramı həyata keçirilməkdə davam edir.
- Bakıda bir sıra yaşayış və qeyri-yaşayış sahələrinin köçürülməsi ilə əlaqədar ərazidə yerləşən tarix və mədəniyyət abidələrinin **inventarlaşması** işi aparılmışdır.
- Azərbaycan **Abidələr və Tarixi Yerlər üzrə Beynəlxalq Şuraya** (**İCOMOS**) üzv qəbul edilmiş, Milli Komissiyanın Katibliyi yaradılmışdır.
- 100-ə yaxın abidənin pasportu tərtib edilmiş, Nazirlər Kabineti tərəfindən 6308 tarix və mədəniyyət abidəsinin siyahısı təsdiq edilmişdir. Bunlardan 2034-ü ölkə, 4209-u yerli, 65-i dünya əhəmiyyətli olaraq qeydə alınmışdır.
- 2013-2016-ci ilərdə daşınmaz tarix və mədəniyyət abidələrinin **kadastrı** yenilənmişdir.
- Məlum olduğu kimi Azərbaycanın iki maddi irs nümunəsi YUNESKO-nun Ümumdünya İrs Siyahısına salınmışdır; 1.**`İçəri Şəhər, Qız Qalası və Şirvanşahlar Saray Kompleksi`(2000)** 2. **`Qobustan Qaya Sənəti Mədəni Landşaftı`(2007) .** 2013-cü ildə YUNESKO-nun Silahlı Münaqişələr Zamanı Mədəni Mülkiyyətin Qorunması Komitəsi çərçivəsində hər iki mədəni irs nümunəsi *`Gücləndirilmiş Mühafizə`* statusu almışdır.
- 2015-ci ildə **`Avey`** qoruğunda arxeoloji qazıntı işlərinə başlanmış, 2016-cı ilin yay aylarında davam etmişdir. 60 illik fasilədən sonra fəaliyyətə başlayan beynəlxalq ekspedisiyada Yaponiyanın Tokio Muzey universiteti iştirak edir.

***Qeyd;*** 2014-cü ildə prezident sərəncamı ilə qəbul edilmiş `Mədəniyyət Konsepsiyası`nın 2.1 bəndində deyilir; Konsepsiyanın həyata keçirilməsi üzrə dövlət proqramlarının layihələri altı ay müddətində hazırlanıb Azərbaycan Respublikasının prezidentinə təqdim edilsin. `**Mədəniyyət Konsepsiyası**`nın bu göstərişi ilə əlaqədar Mədəniyyət və Turizm Nazirliyi tərəfindən 2014-cü ilin birinci yarısında `Qafqaz Albaniyasının irsinin tədqiqi, mühafizəsi və təbliğinə dair Dövlət Proqramı`, `Azərbaycan Respublikasında uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərinin inkişafı üzrə Dövlət Proqramı` (2014-2018-ci ilər), `Dövlət rəsm qalereyalarının perspektiv inkişafı üzrə Dövlət Proqramı` (2015-2025-ci ilər), `2014-2020-ci illərdə Azərbaycan qeyri-maddi mədəni irsinin qorunması haqqında Dövlət Proqramı`, `Azərbaycan Respublikasında nəşriyyat-poliqrafiya işinin və kitab sənətinin 2015-2020-ci illərdə inkişafına dair Dövlət Proqramı`nın layihələri hazırlanmış və müvafiq qurumlara göndərilmişdir.

*Hələlik bu dövlət proqramlarının heç biri qəbul edilməmişdir.*

2) Qeyri-maddi mədəni irsin tərkib hissələrinin qorunub saxlanması, qanunsuz mənimsəmələrin, əsassız itkilərin qarşısının alınması, folklor nümunələrinin və ənənəvi biliklərin YUNESCO-nun xüsusi qoruma siyahısına daxil edilməsi üçün tədbirlər həyata keçirilməsi, sahə üzrə milli qanunvericiliyin təkmilləşdirilməsi, müəlliflik hüququnun və əlaqəli hüquqların qorunması, beynəlxalq normativ hüquqi bazanın tətbiqi.

   Azərbaycan dilinin, Azərbaycan mədəniyyət və tarixinin dünya ölkələrinə tanıdılması.

Hökumət tərəfindən qəbul edilmiş qeyri-maddi irsin mühafizəsi və təbliğ edilməsi ilə bağlı fəaliyyətlərin analizi göstərir ki, hökumətin qeyri-maddi mədəni irslə bağlı prioritetləri aşağıdakılardır:

1. Qeyri-maddi mədəni irsin tərkib hissəsinin qorunub saxlanması;
2. Qanunsuz mənimsəmələrin və əsassız itkilərin qarşısının alınması;
3. Folklor nümunələrinin və ənənəvi biliklərin YUNESKO-nun qoruma siyahısına daxil edilməsi üçün fəaliyyətlərin davam etdirilməsi;
4. Müəlliflik hüququnun, əlaqəli hüquqların qorunması və beynəlxalq normativ hüquqi bazanın tətbiqi üçün milli qanunvericiliyin kompleks şəkildə təkmilləşdirilməsi;
5. Azərbaycan dilinin tətbiqi, təbliği, Azərbaycan mədəniyyət və tarixinin tanıdılması.

• 2013-cü ildə `Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında` Qanunda dəyişiklik edilmişdir.

• 14.06. 2015-ci il tarixində Nazirlər Kabineti tərəfindən `Azərbaycan Respublikasında mədəni irs nümunələrinin qorunması, bərpası və istifadəsi Qaydası` təsdiq edilmişdir.

• 20.02.2015-ci il tarixdə `Kitabi-Dədə Qorqud`un alman dilinə ilk tərcüməsi və nəşrinin 200 illiyinin qeyd edilməsi haqda prezident sərəncamı olmuşdur.

• 06.06.2015-ci il tarixdə Türk Mədəniyyəti və İrsi fondunun fəaliyyətinin təmin edilməsi haqda prezident sərəncamı olmuşdur.

• 06.04.2016-cı il tarixində `Mədəniyyət sahəsində elektron məlumat sisteminin tərkibi, təşkili və idarə olunması Qaydası` təsdiq edilmişdir.

• 2016-cı ildə Milli Məclisdə qeyri-maddi mədəni irsin qorunması ilə bağlı

xüsusi qanun hazırlanması üçün işçi qrupu yaradılıb.

Azərbaycan-YUNESKO əməkdaşlığı 2013-2016-cı ilər ərzində müxtəlif istiqamətlər üzrə davam etdirilərək iki saziş imzalanmışdır. 2013-2014-cü illərdə Azərbaycanın 2 qeyri maddi mədəni irs nümunəsi YUNESKO-nun **Qeyri-maddi Mədəni İrs**

**Siyahısına** və **Təcili Qorumaya Ehtiyacı olan Qeyri-maddi Mədəni İrs Siyahısına** salınmışdır.

`Azərbaycanda Qeyri-maddi Mədəni İrsin Qorunmasına dair Dövlət Proqramı`nın layihəsi ictimaiyyətə təqdim edilmişdir. Eləcə də, *`Qeyri-maddi Mədəni İrs Subyektlərinin (ifaçı, kollektiv, sənətkarlar) Portfolio Bankı*`nın və qeyri-maddi mədəni irsin infrastruktur vahidlərinin və inventar avadanlığının mövcud durumunu əks etdirən *`Şəhər mədəniyyət mərkəzlərinin və onların filiallarının Dövlət Kadastrı*`nın yaradılması layihələri ictimaiyyətə təqdim edilmişdir. Mədəniyyət və Turizm Nazirliyi tərəfindən əlaqədar qurumlara və ictimaiyyətə təqdim edilmiş bu layihələr hələlik qəbul edilməyib.

• 2013-cü ildə ***`Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı`*** qəbul edilmiş, bu proqramdan gələn öhdəliklərlə bağlı əlaqədar qurumlara tapşırıqlar verilmişdir.

• ***`Azərbaycan 2020; Gələcəyə Baxış` İnkişaf Konsepsiyası*** sənədində 2013-2016-cı iləri əhatə edən ***`Qafqaz Albaniyası irsinin tədqiqi, mühafizəsi, və təbliğinə dair Dövlət Proqramı`***nın qəbul edilməsi nəzərdə tutulmuş, mövzu uyğun qurumlar tərəfindən ictimai müzakirəyə çıxarılmış, Mədəniyyət və Turizm Nazirliyi tərəfindən dövlət proqramının layihəsi hazırlanıb aidiyyəti orqana təqdim edilmiş, lakin dövlət proqramı təsdiqlənməmişdir. Qafqaz Albaniyası irsinin öyrənilməsi yönündə bəzi fəaliyyətlər həyata keçirilmişdir.

2013-2016-cı illər ərzində qeydi-maddi mədəni irsin qorunması, itkilərin qarşısının alınması istiqamətində görülmüş işlər aşağıdakılardır:

- 2013-cü ildə **Çovqan Qarabağ Atüstü Oyunu** YUNESKO-nun *Təcili Qorunmaya Ehtiyacı olan Qeyri-maddi Mədəni İrs Siyasına* salınmışdır;
- 2014-cü ildə **Kəlağayi Sənəti və Simvolizmi, Qadın İpək Baş Örtükərinin Hazırlanması və İstifadə olunması** YUNESKO-nun Qeyri-maddi Mədəni İrs üzrə *Reprezentativ Siyahısına* daxil edilmişdir;
- 2015-ci ildə **Lahıcın Misgərlik Sənəti** YUNESKO-nun *Qeyri-maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına* daxil edilmişdir;
- YUNESKO-nun görkəmli şəxsiyyətlər və əlamətdar hadisələrin yubileyləri proqramı çərçivəsində **Seyid Yəhya Bakuvinin** 550, **Məhsəti Gəncəvinin** 900, Üzeyir Hacıbəylinin **`Arşın Mal Alan`** musiqili komediyasının 100 illiyi, **İlyaz Əfəndiyevin** 100 illiyi, **Əhməd Əl-Bərdəçinin** vəfatının 1100 illiyi, **Kitabi-Dədə Qorqud** eposunun alman dilinə tərcüməsinin və nəşrinin 200 illiyi, Türkiyə və Tacikistanla bir yerdə Əbdülqadir Marağayinin `**Maqasid əl-Əlham**` əsərinin 600 illiyi qeyd olunmuşdur;
- YUNESKO-nun 2015-ci il konfransında 2016-2017-ci illər üçün 3 yubeleyin keçirilməsi qərara alınmışdır; **Nəsiminin** ölümünün 600 illiyi, **Molla Pənah**

**Vaqifin** 300 illiyi, **Cənubi Qafqazda Alman Yaşayış Məskənlərinin Salınmasının** 200 illiyi;

- Azərbaycan Qeyri-maddi Mədəni İrs Nümunələrinin **Dövlət Reyestri** 2013-2015-ci illərdə yenilənmişdir;
- Qeyri-maddi mədəni irsin təbliği üçün xalq yaradıcılığı paytaxtları seçilmiş, çox saylı musiqi, rəsm, meyvə, yemək və digər festivallar, müsabiqələr, mərasimlər, elmi-praktik konfranslar, dəyirmi masalar, konsertlər, yubileylər, xatirə gecələri, sərgilər, yarmarkalar, infoturlar keçirilmişdir;
- Muzeylər, ev-muzeylər, görməli yerlər, tarix-mədəniyyət obyektləri haqqında **onlayn naviqator**[1] hazırlanmışdır;
- YUNESKO-ya təqdim etmək üçün `Koroğlu dastanı və `Yallı` rəqsi barədə yeni faylların hazırlanması, daş sənəti, nar, şəbəkə fayllarının işlənməsi davam etmişdir.
- `Koroğlu` eposunun Azərbaycan və Türkmənistanın birgə layihəsi kimi hazırlanaraq YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilməsi təklifi irəli sürülmüş Türkmənistan tərəf razılığını bildirmişdir.
- Naxçıvan şəhərinin 5000 illik yubileyi ilə bağlı fayllar YUNESCO ya təqdim edilmişdir.
- CİS turizm məqsədli naviqasiya sistemi üzrə xidmətlər, kinoların reyestr proqramı, qeyri-maddi mədəni irs abidələrinin reyest proqramı, Dövlət Rəsm Qalereyalarında saxlanan əsərlərin `Vahid Elektron Kataloqu` proqramı sistemləri 2013-2016-cı illər ərzində nəzarətdə saxlanmış, məlumatların təhlükəsizliyi və qorunması təmin edilmiş, sistemlər işlək vəziyyətdə olmuşdur.
- `Qobustan` milli kompyüter oyunu sosial şəbəkələrdə yayılmışdır.
- 2013-cü ildə `*Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair*` Dövlət Proqramı qəbul edilmişdir;

`**Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı**`nın analizi göstərir ki, hökumətin Azərbaycan dili ilə bağlı prioritetləri aşağıdakılardır;

1. Normativ hüquqi bazanın təkmilləşdirilməsi;
2. Azərbaycan dilinin tədrisinin genişləndirilməsi;
3. Azərbaycan dilinin tətbiqinin genişləndirilməsi;
4. Azərbaycan dilinin öyrənilməsi və təbliği sahəsində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi;

[1] http://gomap.az/Info/poilist.aspx?idlo=30&lvo=4

5. Azərbaycan dilinin kütləvi informasiya vasitələrində təbliği.

2013-cü ildə `*Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair*` **Dövlət Proqramından** gələn öhdəliklərin yerinə yetirilməsi aşağıdakı vəziyyətdədir;

• `Dlçiliyin inkişafına dair` Dövlət Proqramından gələn fəaliyyətlər; normativ hüquqi aktların təkmilləşdirilməsinə dair təkliflərin hazırlanması (2013-2015); 2013-2016-cı illər ərzində dövlət dilinin tətbiqi ilə bağlı qanunvericilikdə dəyişiklik olmayıb.

• `Dlçiliyin inkişafına dair` Dövlət Proqramından gələn öhdəlik; Dilçilik İnstitutunun strukturunun təkmilləşdirilməsi və maddi-texniki bazasının müasirləşdirilməsi; İnstitutda müəyyən işlər görülüb, lakin problemin əhatə etdiyi ehtiyacın ödənilməsi üçün yetərli sayılmır.

• 2013-2014-cü illər ərzində `*Milli Transliterasiya Standartları*` nın hazırlanması; göstərilən müddətdə öhdəlik yerinə yetirilməyib. Hazırlıq işləri noyabr, 2016-cı il tarixinə kimi davam etməkdədir.

• 2013-2014-cü illərdə `*Qaynar Xətt*`in yaradılması; `Qaynar Xətt` 2016-cı ilin may ayında fəaliyyətə başlayıb.

• Dlçiliyin inkişafına dair` Dövlət Proqramından gələn öhdəlik; 2015-ci il üçün xarici diplomatik nümayənddəliklərdə təsərrüfat hesablı Azərbaycan dili kurslarının yaradılması; Diasporla İş Komitəsinin mədəniyyət nümayəndəliklərində hələ 2013-cü ildə müasir informasiya texnologiyası vasitəsi ilə Azərbaycan dili, ədəbiyyatı, tarixi, mədəniyyəti və coğrafiyası ilə bağlı distant təhsil saytı yaradılmışdır. Saytın fəaliyyəti 2014-cü ilə kimi davam etmişdir. Hazırda sayt işləmir.

• 2013-2014-cü illərdə Milli transliterasiya standartları əsasında Azərbaycan əlifbasından digər əlifbalara transliterasiyanı həyata keçirən proqram təminatının hazırlanması; Dövlət Proqramında göstərilən müddətdə öhdəlik yerinə yetirilməyib. Proqram təminatı hazırlıq mərhələsindədir.

• 2013-2015-ci illərdə Azərbaycan dilinin dövlət dili kimi ümumi informasiya bazasının yaradılması. Yaradılmayıb.

• 2013-2015-ci illərdə Dilçiliyin inkişafı Dövlət Proqramı Milli Terminoloji informasiya sisteminin yaradılmasını nəzərdə tutur. Hələ yaradılmayıb.

• Dövlət Proqramı 2013-2016-cı illərdə Azərbaycan dilində antiplagiat sistemin yaradılmasını nəzərdə tutur. 2016-cı ilin aprelində bu mövzu ilə əlaqədar nazirliklər, agentliklər, universitetlər, AMEA tərəfindən birgə müzakirə edilib.

• 2013-2016-cı illərdə Azərbaycan dilinin tədrisinin və tətbiqinin genişlənməsi ilə bağlı fəaliyyət olmayıb.

3) Muzey işinin təkmilləşdirilməsi, fondlarda saxlanan əşyaların mühafizəsi, muzey haqqında məlumatların elektron bazası, muzeylərin mərkəzləşdirilmiş informasiya sisteminin təşkil edilməsi, muzeylərin əsaslı təmir-tikintisi, işğal olunmuş muzeylərdən oğurlanmış əşyaların qaytarılması; dünya muzeylərində saxlanan Azərbaycan mənşəli eksponatların tədqiqi və Azərbaycana məxsusluğunun sübutu üçün materialların toplanması,

Rəsmi göstəricilərə görə hazırda ölkə ərazisində 201 muzey fəaliyyət göstərir; bunlardan 14-ü incəsənət, 7-si ədəbiyyat, 12-si tarix, 68-i tarix-diyaşünaslıq, 5-i döyüş şöhrəti, 43-ü ev, 52-si Heydər Əliyev muzeyləridir.

Muzey işinin yaxşılaşdırılması haqqında son prezident sərəncamı 2007-ci ildə olmuşdur. `Azərbaycanın regionlarında fəaliyyət göstərən muzeylərin müasir standartlara uyğun təmirinə, yeni avadanlıq və zəruri eksponatlarla təchizatına dair xüsusi tədbirlər planı haqqında prezident sərəncamı 2009-cu ildə olmuşdur. 2013-2016-cı illər ərzində muzey işinin yaxşılaşdırılması yalnız əlaqədar qanunvericilik aktlarının içərisində növbəti bənd kimi keçmişdir.

2013-cü ildə `Qala` Dövlət Tarix-Etnoqrafiya Qoruğunun xüsusi rejimi haqqında Əsasnamı`nin təsdiq edilməsi barədə Nazirlər Kabinetinin qərarı olmuşdur.

2014-cü ildə `Azərbaycan Respublikasında geologiya, paleontologoya, mineralogiya və fauna üzrə Təbiət Tarixi Muzeyinin yaradılması Konsepsiyasının təsdiq edilməsi haqqında prezident fərmanı olmuşdur. Lakin bu fərmandan irəli gələn öhdəliklər yerinə yetirilməmişdir. Təbiət Tarixi Muzeyinin fəaliyyət və strukturunda ilk yarandığı 60-cı illərdən bu tərəfə ciddi dəyişiklik baş verməmişdir.

• 2013-cü ildə Gürcüstanın Tbilisi şəhərində M.F. Axundzadə adına Azərbaycan Mədəniyyət Muzeyi açılmışdır.

• 2013-cü ildə Naxçıvanda şair Məmməd Arazın ev muzeyi yaradılmışdır.

• 2013-cü ildə Bakıda N. Nərimanovun xatirə muzeyi əsaslı təmirdən sonra yenidən açılmışdır.

• Tovuz rayonunda Bozalqanlı adına Aşıq Sənəti Muzeyi yenidən qurulması üçün ziyarətçilər üçün bağlanmışdır.

• Astara rayon tarix-diyarşünaslıq muzeyinin filialı statusunda rayonun Kakalos kəndində muzey yaradılmışdır.

• 2013-cü ildə Mədəniyyət və Turizm nazirliyi Astara, Lənkəran, Lerik, Yardımlı və Masallı rayonunda muzeylərin vəziyyəti ilə bağlı monitorinq keçirmişdir.

• 2013-cü ildə Şabranın Pirəbədil kənd muzeyi Qəzənfər Musabəyovun ev muzeyi adlanmışdır.

• 2014-cü ildə Azərbaycan Xalça Muzeyinin rəsmi açılışı olmuşdur.

• Azərbaycanın Almaniyadakı səfirliyi aşkar etmişdir ki, Berlinin İbtidai və Qədim Dövr Tarix muzeyinin fondlarında Azərbaycanın Tunc Dövrünün, xüsusilə, Xocalı-Gədəbəy

mədəniyyətini əks etdirən 2600-dən çox eksponat qorunub saxlanır. Heç bir nəşrdə əksini tapmamış bu eksponatların tədqiqi ilə bağlı mütəxəssis qrupu göndərilmişdir.

• 2014-də S.Vurğunun ev muzeyində, S. Bəhlulzadənin ev muzeyində təmir, bərpa, yeni tərtibat işləri görülmüş, Neftçalanın 2 saylı orta məktəbində Tarix-Diyarşünaslıq muzeyinin filialı yaradılmış, Horadizdə Füzuli rayon Tarix-Diyarşünaslıq Muzeyi bərpa edilmiş, Qubada Tarix-Diyarşünaslıq Muzeyi üçün bina inşa edilmişdir. Ağacabədidə Tarix-Diyarşünaslıq Muzeyi əsaslı təmir üçün bağlanmışdır.

• 2014-cü ildə xalq rəssamə Səttar Bəhlulzadənin ev muzeyi təmir-bərpadan sonra açılmışdır.

2014-cü ildə Füzuli rayon Tarix-Diyarşünaslıq Muzeyinin fəaliyyətinin bərpa edilməsi məqsədi ilə Horadiz şəhərində ekspozisiya sahəsi 300 kv.m olan bina inşa edilmişdir.

• 2014-cü ildə Azərbaycan Xalça Muzeyinin rəsmi açılışı olmuşdur.

• 2014-cü ildə Quba Tarix-Diyarşünaslıq muzeyi üçün bina inşa edilmişdir.

• 2015-ci ildə Göygöldə `Sonuncu alman Viktor Klaynın Ev-muzeyi` açılmışdır.

• 04.11. 2016-cı il tarixdə Mədəniyyət və Turizm Nazirliyi tərəfindən muzey sərvətlərinin elektron portalı[2] təqdim edilmişdir.

• 21.09.2016-cı il tarixdə Azərbaycan bəstəkarlarının və musiqişünaslarının elektron kataloqu[3] təqdim edilib.

4) **Kitabxana-informasiya şəbəkəsinin inkişafı, kitabxana fondlarının ədəbiyyat və müasir informasiya daşıyıcıları ilə təmin edilməsi; Kitabxana və nəşriyyat işi üzrə dövlət proqramlarının hazırlanması.**

Mədəniyyət və Turizm Nazirliyinin hesabatına görə hazırda nazirliyin şəbəkəsinə 3000-ə yaxın kitabxana daxildir. Respublikanın kitabxana fondlarında 40 milyona qədər kitab, jurnal, qəzet və digər informasiya daşıyıcıları vardır.

***`Azərbaycan 2020; Gələcəyə Baxış` İnkişaf Konsepsiyası*** sənədində əsas hədəflərdən biri kimi göstərilən kitabxana-informasiya şəbəkəsinin inkişafı üçün 2013-2016-cı illər üzrə görülən işlər aşağıdakılardır:

- `Kitabxana işi haqqında` Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə` və Qanunun tətbiqi haqqında 2016-cı il tarixində prezident sərəncamı olmuşdur.

[2] http://nationalmuseum.az

[3] http://mct.gov.az/news-details?id=2584

- 2013-cü ildə Mədəniyyət və Turizm Nazirliyi `Kitabxana-İnformasiya sahəsinin inkişafı və kitabxana xidmətinin yeniləşdirilməsi üzrə Dövlət Proqramı (2014-2020-ci illər)` və `Tədbirlər Planı` layihələrini hazırlayaraq Nazirlər Kabinetinə təqdim etmişdir.
- Bütün mərkəzi kitabxana və kitabxana filiallarının siyahısı hazırlanmış, kitabxana-informasiya sahəsinin strukturu tədqiq üçün Nazirlər Kabinetinə təqdim edilmişdir.
- 2014-cü ildə Mədəniyyət və Turizm Nazirliyi tərəfindən `Nəşriyyat İşi haqqında` qanunun tələblərinə uyğun olaraq `Nəşriyyat –poliqrafiya işinin və kitab sənətinin 2015-2020-ci ilərdə inkişaf üzrə Dövlət Proqramı` hazırlanaraq Nazirlər Kabinetinə təqdim edilmişdir.

**2013-2016-cı illərdə Kitabxana-informasiya şəbəkəsinin inkişafı, kitabxana fondlarının ədəbiyyat və müasir informasiya daşıyıcıları ilə təmin edilməsi, elektronlaşdırılması sahəsində görülən işlər:**

- 2013-cü ildə prezident sərəncamı ilə Milli Kitabxananın 90 illik yubileyi keçirilmişdir.
- 2013-cü ildə Bakıda Beynəlxalq Kitab sərgi-yarmarkası keçirilmişdir. Sərgi-yarmarkada Mədəniyyət və Turizm Nazirliyi və Milli Kitabxana 600-dən çox kitabla təmsil olunub.
- 2013-cü ildə Mədəniyyət və Turizm Nazirliyi tərəfindən 99 adda kitab alınıb kitabxanalara verilmişdir.
- 2013-cü ildə Bakıda Avropa Milli Kitabxanaları Konfransının 27-ci növbəti görüşü olmuş, görüşdən 40-dan çox Avropa ölkəsindən 50-dən çox nümayəndə iştirak etmişdir.
- 2013-cü ildə 81108 yazı elektron kataloqa daxil edilmiş, elektron kitabxanaya 17 701 elektron resurs daxil olmuş, ümumilikdə kitabxanada 75543 elektron resurs vardır.
- 2013-cü ildə 3840 oxucu Milli Kitabxananın elektron xidmətindən istifadə etmişdir.
- 2013-cü ildə `Azərbaycan Respublikasında Kitabxana-İnformasiya sahəsinin 2008-2013-cü ilərdə inkişafı üzrə Dövlət Proqramı`na əsasən Cabbarlı adına Respublika Gənclər kitabxanasının nəzdində kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması və elektron kataloqların ümumi Toplu Kataloqu [4] və AZLİBNET [5] Milli Kitabxan-İnformasiya Mərkəzi yaradılmışdır. Bir çox kitabxanaların oxucu zallarında wi-fi zonaları yaradılmış, yeni avadanlıq və müvafiq inventarla təmin edilmişdir.
- 2014-cü ildə Milli Kitabxananın fondu 4 568 838 nüsxədən ibarət olmuş, 34 923 nəfər üzv olmuşdur, ümumi say 75 526 nəfərə çatmışdır, il ərzində davamiyyət 177 511 nəfər olmuşdur.

---

[4] http://www.azlibnet.az

[5] http://elibrary.azlib.net/cgi-bin/irbis64r_azlibnet/

- 2014-cü ildə xarici ölkələrə, səfirliklərə, sərgi-yarmarkalara 3486 nüsxə ədəbiyyat göndərilmiş, 1366 nüsxə ədəbiyyat daxil edilmişdir.
- 2014-cü ildə Milli Kitabxanada təmir və madernləşmə işləri görülmüşdür.
- 2014-cü ildə 12 rayon və 28 kənd filialı kitabxanasına metodik kömək göstərilmişdir. Regionlarda ALİSA proqramının tətbiqi ilə treninqlər və 10 günlük kurslar keçirilmişdir.
- 2015-ci ildə Milli Kitabxanaya 20 060 nüsxə ədəbiyyat daxil olmuşdur, virtual oxucuların sayı 791 038 nəfər olmuş, il ərzində kitabxanaya gələn oxucuların davamiyyəti 189 551 nəfər olmuşdur.
- 2015-ci ildə elektron kitabxanaya 126 654 elektron resurs yerləşdirilmişdir.
- 2015-ci ildə IV Bakı Beynəlxalq kitab sərgi-yarmarkası keçirilmişdir. Mərakeş, Çin, Bosniya, Herseqovina kitabxanaları ilə memorandum imzalanmışdır.
- 2015-ci ildə Azərbaycan ilk dəfə Turin Beynəlxalq Kitab sərgisində 300 kitabla təmsil olunmuşdur.
- 2015-ci ildə cəmi bir nüsxə qalmış 7 ədəd zəruri kitablın bərpası `Bərpanəşr` layihəsi çərçivəsində nəşr edilmiş, milli mədəniyyətin təbliği, dünya ədəbiyyatının təbliği, uşaq, musiqi və incəsənət məktəblərinin təlabatını ödəmək məqsədi ilə 70 adda kitab nəşr edilmişdir.
- Kitabxanaların ehtiyacı üçün nazirlik tərəfindən 309 adda 6735 nüsxə nəşr məhsulu alınıb dövlət kitabxana fonduna verilmişdir.
- 2015-ci ildə `Kənd Kitabxana –İnformasiya Mərkəzi` pilot layihəsi həyata keçirilmiş və ALİSA proqramının təqdimatı keşirilmişdir.
- 2015-ci ildə YUNESKO-nun `İnformasiya hamı üçün` proqramının Azərbaycan komitəsinin dəstəyi ilə `Azərbaycan ədəbiyyatının virtual kitabxanası` yaradılaraq veb-saytında 1000-dən çox kitab yerləşdirilmişdir.
- 2015-ci ildə respublika üzrə Elektron kataloqlara 84 milyondan çox elektron resurs daxil edilmişdir.
- 2015-ci ildə 667 nəfər mədəniyyət işçisi 36 kateqoriya üzrə ixtisasartırma kursu keçmişdir.
- 2015-ci ildə Milli Kitabxananın fondunda 4569604 nüsxə ədəbiyyat toplanmışdır. 28 933 kitab rəqəmsallaşdırılmış, 3 elektron məlumat bazası yaradılaraq elektron kitabxanaya daxil edilmişdir. Ümumilikdə elektron kitabxanada 126 654 elektron resurs vardır. 68 790 biblioqrafik yazı Virtuala daxil edilmişdir.
- Bütün uşaq musiqi, incəsənət və rəssamlıq məktəəblərində monitorinqlər keçirilmiş, mütəmadi olaraq baxışlar, festivallar, müsabiqələr, sərgilər keçirilmişdir.

### 5) Musiqi ifaçılığının və yaradıcılığının təşviq edilməsi, mədəniyyət sahəsində fəaliyyət göstərən özəl təsisatlara dövlət dəstəyinin artırılması

*`Azərbaycan 2020; Gələcəyə Baxış` İnkişaf Konsepsiyası*nda hədəflərdən biri kimi göstərilən musiqi ifaçılığının və yaradıcılığının təşviq edilməsi və mədəniyyət sahəsində

fəaliyyət göstərən özəl təsisatlara dövlət dəstəyinin artırılması istiqamətində aşağıdakı işlər görülmüşdür:

- 2013-2016-cı illərdə `Gəncləşən Muğam` devizli konsertlər, gənc caz ifaçılarının konsertləri, gənc aşıqların konsertləri, Dövlət Simfonik Orkestrinin ifasında gənc bəstəkarların əsərlərinin nümayişi silsilə olaraq davam etmişdir.
- Ənənəvi illik Bakı Beynəlxalq Caz Festivalı keçirilmişdir.
- 2015-ci ildən etibarən `Vaqifsayağı Caz Festivalı`nın təməli qoyulmuş və 2016-cı ildə ikinci dəfə keçirilmişdir.
- 2013 və 2015-ci illərdə Muğam festivalı keçirilmiş, festivalda Azərbaycandan və xarici ölkələrdən çoxsaylı qruplar iştirak etmişlər. Festival çərçivəsində Azərbaycanın bütün bölgələrində ustad dərsləri keçirilmişdir.
- 2013 və 2015-ci illərdə Qara Qarayev adına V və VI Beynəlxalq Müasir Musiqi Festivalı keçirilmişdir.
- 2013-2016-cı illərdə Qəbələdə Beynəlxalq musiqi festivalı, Şəkidə `İpək Yolu` Beynəlxalq musiqi festivalı, Bakıda Üzeyir Hacıbəyov Beynəxalq Musiqi Festivalı, Mstislav Rastropoviç adına Beynəlxalq Musiqi Festivalı keçirilmişdir.
- 2013-2016-cı illərdə Şəkidə III Beynəlxalq Şirniyyat Festivalı, Qəbələdə mürəbbə festivalı, Naxçıvanda `Plov` və `Yallı` festivalları keçirilmişdir.
- 2014-cü, 2015-ci ildə Bakıda `Novruz Salsa Festivalı` keçirilmişdir
- 2013-2016-cı illərdə Masallı Beynəlxalq Folklor Festivalı keçirilmişdir.
- Hər il Milli Azlıqların `Azərbaycan Mənim Vətənimdir` adlı Respublika festivalları keçirilmişdir.
- Hər il keçirilən Beynəlxalq Aşıq Festivalları Azərbaycan aşıqlarını və aşıq-ozan sənətinin yayqın olduğu ölkələrin sənətkarlarını bir araya gətirmişdir.

• Gəncə Dövlət Filarmoniyasının tikintisi ilə bağlı əlavə tədbirlər haqqında prezident sərəncamı olmuşdur.

• YUNESKO-nun `2016-2017-ci illər üçün görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin yubileyləri proqramı`na daxil edilmiş Qafqaz regionunda alman məskənlərinin salınmasının 200 illiyinin qeyd olunması üçün 2016-cı ilin 30 avqustunda prezident sərəncamı olmuşdur.

• 2014-cü ildə prezident sərəncamı ilə Bakı Xoreoqrafiya Məktəbinin bazasında Bakı Xoreoqrafiya Akademiyası yaradılmışdır.

---

**Təkliflər:**

1. Hesabatların vaxtında açıqlanmasının təmin edilməsi ( 2015-ci ilin hesabatı hələ də açıqlanmayıb).

2. Hesabatlar üzrə ictimai müzakirələrin təşkili.

3. Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası və qorunması işləri ilə bağlı kənar mütəxxəsislərin, sahə üzrə çalışan QHT-lərin rəylərinin öyrənilməsi və ictimailəşdirilməsi.

4. Həfədlənmiş mədəni siyasətin açıqlanması.

5. Kişik sənət ocaqlarına dəstəyin artırılması.

6. İcra olunmayan öhdəliklərlə bağlı izahatın ictimaiyyətə təqdim edilməsi.

7. Dövlət dili ilə bağlı Dövlət Proqramının yubadılmış fəaliyyətlərinin icrasının sürətlənməsi.